# Tarixi-dini abidələr bərpa edilir



**Ermənistanın cinayətkar rejimi və onların havadarları 30 ilə yaxın müddətdə Qarabağda şəhərləri, kəndləri xarabalığa çeviriblər, bu yerlərdə erməni vəhşiliyinin, vandallığının miqyası çox dəhşətlidir, təbiətə vurduqları zərərin nəticələri ağırdır. Erməni faşistlər xalqımızın mədəni-dini abidələrini yerlə-yeksan ediblər, tariximizi, şəcərəmizin izini, qəbiristanlıqları yer üzündən silməyə cəhd göstəriblər. Hər bir müsəlman üçün müqəddəs olan, "Allahın evi" sayılan məscidləri söküb dağıdan erməni vəhşiləri qatı düşmənçilik ruhunda bu məkanları murdarlayıb, dini inanclarımızı təhqir ediblər. Özlərini dünyaya "yazıq", "məzlum" kimi təqdim edən erməniliyin əsl siması başqa xalqlara qarşı dözümsüzlük varvarlıqdır.**

Ağdam şəhərindəki məscid 1870-ci ildə inşa edilib və bu günədək bir çox tarixi hadisələrin, müsibətlərin, faciələrin şahididir. Birinci Qarabağ müharibəsində 6 mindən çox şəhidimizin kəfn-dəfn işləri burada aparılıb. Məscid Xocalı faciəsi zamanı azərbaycanlıların üzləşdiyi dəhşətlərə şahidlik edib. Tarixi-dini abidə Heydər Əliyev Fondu tərəfindən təmir ediləcək. Bu barədə mədəniyyət nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli "Qarabağın və Şərqi Zəngəzurun memarlıq irsi. Bərpa, qorunma və istifadə problemləri" adlı beynəlxalq elmi konfransda məlumat verib. Qeyd olunub ki, işğaldan azad edilən ərazilərdə 706-sı dövlət qeydiyyatında olmaqla, 2600-dən çox tarixi mədəniyyət abidələri var.

Şuşa şəhərində dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəylinin heykəli, tarixi şəxsiyyət və dövrünün ən məşhur şairi Molla Pənah Vaqifin büstü və məqbərəsi, Şərqin ünlü sənətçisi Bülbülün ev-muzeyi bərpa edilib. Həmçinin Aşağı və Yuxarı Gövhərağa və Saatlı məscidlərinin bərpası uğurla davam etdirilir. Ağdam cümə məscidinin və Qiyaslı kənd məscidinin bərpasına da başlanılacaq. Bundan başqa, Üzərliktəpədə arxeoloji-qazıntı işləri də aparılır. Qarabağın və Şərqi Zəngəzurun tarixi, mədəni, dini abidələri bərpa edilir, onlara yeni həyat verilir.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2022.- 29 aprel.- S.4.